Azərbaycan Respublikası
Fövqəladə Hallar Nazirliyi
yanında İctimai Şura

# 2023-2025 ci illərdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi yanında İctimai Şuranın fəaliyyətinə dair

# HESABAT

Bakı şəhəri, 2025

# FHN yanında İctimai şuranın yeni tərkibdə ilk iclası keçirilib.

8 İyun, 2023

7 iyun 2023-cü il tarixində növbəti seçkilərdən sonra Fövqəladə Hallar Nazirliyi yanında yeni tərkibdə İctimai şuranın ilk iclası keçirilib.

İclasda iştirak edən Fövqəladə Hallar Nazirliyinin Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarəsinin rəis müavini Gündüz Həmzəyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaş cəmiyyəti institutlarına xüsusi diqqət və qayğısından söz açıb, qeyri-hökumət təşkilatlarının cəmiyyətdə oynadığı rolun əhəmiyyətindən danışıb. Rəis müavini Nazirlik yanında yeni yaradılmış İctimai şuranın fövqəladə halların idarə edilməsi ilə əlaqədar müvafiq rəy və təkliflərinin nəzərə alınacağını bildirib, ictimaiyyətlə səmərəli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə ümidvar olduğunu qeyd edərək ona fəaliyyətində uğurlar arzulayıb.

İclasda təşkilati məsələlər müzakirə edilib, səsvermə keçirilib. İki il fəaliyyət göstərəcək İctimai şuraya Beynəlxalq Ekoenergetika Akademiyasının vitse-prezidenti vəzifəsini icra edən Fuad Hacızadə sədr, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədr müavini Vəfa Abbasova sədr müavinləri, "Gənclərin İnkişafına Dəstək" İctimai Birliyinin İdarə heyətinin sədri Məhəmməd Məmmədov isə katib seçilib.

İclasda müxtəlif məsələlər müzakirə edilib, şura üzvləri tərəfindən Fövqəladə Hallar Nazirliyinin ölkə əhalisinin təbii və texnogen hadisələrdən qorunması sahəsində gördüyü işlərdən bəhs edilərək, Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq rəy və təkliflərin təqdim edilməsi, şura üzvlərinin əhalinin fövqəladə hallarla bağlı maarifləndirilməsi istiqamətində FHN-in həyata keçirdiyi tədbirlərə dəstəyi və digər təkliflər səsləndirilib.





# FHN yanında İctimai şuranın üzvləri ilə növbəti görüş keçirilib

10 Oktyabr, 2023



Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın üzvləri ilə növbəti görüş keçirilib.

Fövqəladə Hallar Nazirliyinin Akademiyasında baş tutan görüşdə, əvvəlcə Şura üzvləri Akademiyada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, konfrans zalı, fənn kabinetləri və kitabxanaya baş çəkib, tədris prosesi ilə maraqlanıb, həmçinin ali təhsil müəssisəsinin 15 illik fəaliyyətini əks etdirən Muzeyə baxıblar.

Sonra görüşdə çıxış edən Akademiyanın rəisi general-mayor Baba Salayev Şura üzvlərinə ali təhsil müəssisəsi haqqında ətraflı məlumat verib və bildirib ki, Akademiya FHN üçün xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanmasını həyata keçirən, fövqəladə hallar sahəsində fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı ali təhsil müəssisəsidir.

Fövqəladə Hallar Nazirliyinin Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarəsinin rəis müavini Gündüz Həmzəyev İctimai şuranın qurumun fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi üçün faydalı mexanizm olduğunu və fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə əlaqədar müvafiq rəy və təkliflərinin nəzərə alınacağını bildirib, ictimaiyyətlə səmərəli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə ümidvar olduğunu qeyd edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra İctimai Şura üzvlərinə vəsiqələr təqdim edilib.

# FHN yanında İctimai şuranın nüvə və radiasiya təhlükəsizliyi məsələlərinə həsr olunan iclası keçirilib

8 Dekabr, 2023

İclasın keçirilməsində əsas məqsəd Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin ölkə ərazisində nüvə və radiasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət, bu istiqamətdə görülən işlər və qarşıda duran vəzifələrin ictimai müzakirəsi olub.

İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, FHN Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin rəisi Nicat Əliyev, Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarə rəisinin müavini Gündüz Həmzəyev, İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini Vüqar Novruzov və Agentliyin əməkdaşları iştirak ediblər.

İclasda çıxış edən Agentliyin rəisi N.Əliyev təmsil etdiyi qurum tərəfindən ölkə ərazisində nüvə və radioloji təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi tərəfindən səlahiyyətlərinə uyğun olaraq nüvə və radioloji fəaliyyət növləri ilə məşğul olan təşkilatlarda nəzarət-yoxlama tədbirləri həyata keçirilib, nüvə və radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində aşkar edilmiş pozuntulara qarşı sanksiyalar tətbiq edilib, ionlaşdırıcı şüalanma mənbələrindən istifadə ilə əlaqədar fəaliyyət növləri üçün xüsusi icazələrin verilməsi, ionlaşdırıcı şüalanma mənbələrinin və onlardan istifadə edən obyektlərin reyestrinin aparılması, ixrac nəzarətinə düşən malların idxalı, ixracı və tranzitinə nəzarətdə iştirak təmin edilib, nüvə və radiasiya təhlükəli obyektlərdə nüvə və radiasiya təhlükəsizliyinin qiymətləndirilməsi, eyni zamanda, nüvə və radiasiya təhlükəsizliyi sahəsində maarifləndirmə işləri həyata keçirilib.

Agentliyin fəaliyyətini ümumilikdə müsbət qiymətləndirən İctimai şura üzvləri nüvə və radioloji təhlükəsizliyin təmin edilməsi istiqamətində aidiyyəti qurumlarla birgə əlaqəli fəaliyyətin əhəmiyyətini qeyd ediblər.



# FHN yanında İctimai şuranın növbəti iclası keçirilib

17 Yanvar, 2024

Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın növbəti iclası keçirilib.

İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, Nazirliyin İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini İradə Kərimova iştirak edib.

İclasda şura tərəfindən görülən işlər və qarşıda duran məsələlər müzakirə olunub. Həmçinin, Fövqəladə Hallar Nazirliyinin ölkə əhalisinin təbii və texnogen hadisələrdən qorunması sahəsində gördüyü işlərdən bəhs edilib, Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq rəy və təkliflərin təqdim edilməsi, əhalinin fövqəladə hallarla bağlı maarifləndirilməsi istiqamətində FHN-in həyata keçirdiyi tədbirlərdə şura üzvlərinin yaxından iştirakının əhəmiyyəti qeyd olunub.

İclasda İctimai şura üzvlərinin təklifləri səsləndirilib, şuranın yaxın dövr üçün fəaliyyət planı nəzərdən keçirilib.





# İctimai şuranın üzvləri FHN Akademiyasına kursant qəbulu ilə əlaqədar seçim turunu izləyiblər

8 May, 2024

7 may 2024-cü il tarixində Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunda 2024/2025-ci tədris ili üzrə FHN-in Akademiyasına qəbul olmaq üçün sənəd verən abituriyentlərin fiziki hazırlıqlarının qiymətləndirilməsi üzrə seçim turu keçirilib. Seçim turunda abituriyentlər müəyyən olunmuş idman normativləri üzrə bacarıqlarını sınayıblar.

Sonra Şura üzvləri Klubda Ulu Öndərin idmanın inkişafı istiqamətində gördüyü işləri özündə əks etdirən Heydər Əliyev Muzeyində geniş ekspozisiya və fotoguşələrlə tanış olub, idman zalları və üzgüçülük hovuzuna baxış keçiriblər.

İctimai şuranın üzvləri İdman-sağlamlıq klubunda yaradılmış şəraiti və klubun fəaliyyətini yüksək qiymətləndirdiklərini bildiriblər.









# İctimai şuranın üzvləri ilə görüş keçirilib

12 İyun, 2024

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən elan olunmuş "İnsan hüquqları aylığı" çərçivəsində Fövqəladə Hallar Nazirliyinin nümayəndələri FHN yanında İctimai şuranın üzvləri ilə görüşüblər.

Görüşdə Nazirliyin əməkdaşları tərəfindən FHN-in fəaliyyət istiqamətlərinə uyğun insan hüquqlarının qorunması məsələsinin daim diqqətdə saxlanıldığı vurğulanıb, bu sahədə görülən işlərdən danışılıb. Bu baxımdan Nazirlik yanında İctimai şuranın faydalı bir mexanizm olduğu, cəmiyyəti narahat edən məsələlərin, vətəndaşların problemlərinin operativ şəkildə həllini tapması üçün Şuranın fəaliyyətinin əhəmiyyəti qeyd edilib.

Mövzu ətrafında geniş müzakirələrin aparıldığı görüşdə şura üzvlərini maraqlandıran suallar cavablandırılıb, təkliflər səsləndirilib.



# Fövqəladə Hallar Nazirliyi və Nazirlik yanında İctimai Şura təltif edilib

14 İyun, 2024



Fövqəladə Hallar Nazirliyi, Nazirlik yanında İctimai şura və "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin nümayəndələri arasında görüş keçirilib.

Görüşdə FHN-in İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini İradə Kərimova və Nazirliyin məsul əməkdaşları, İctimai şuranın sədri Fuad Hacızadə və şuranın üzvləri, "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri, ictimaishura.az saytının baş redaktoru Cəsarət Hüseynzadə iştirak ediblər.

Tədbirdə İ.Kərimova faydalı bir mexanizm kimi İctimai şuranın fəaliyyətinə Fövqəladə Hallar Nazirliyi tərəfindən xüsusi əhəmiyyət verildiyini, Nazirliyin müxtəlif qurumlarında Şura üzvləri ilə mütəmadi görüşlərin keçirildiyini, birgə müzakirələrin aparıldığını qeyd edib. Eyni zamanda, fövqəladə halların idarə edilməsi ilə əlaqədar cəmiyyəti narahat edən məsələlərin, vətəndaşların problemlərinin operativ şəkildə həllini tapması üçün Şura üzvləri tərəfindən ünvanlanan müvafiq rəy və təkliflərin, sorğuların daim nəzərə alındığı da diqqətə çatdırılıb..





“İnformasiya və Sosial Təşəbbüslərə Dəstək” İctimai Birliyinin sədri, ictimaishura.az saytının baş redaktoru Cəsarət Hüseynzadə ictimai şuraların yaradılmasının mövcud problemlərin həlli üçün dövlət orqanları ilə cəmiyyət arasında əlaqələrin formalaşmasına, ictimai iştirakçılığın təmin edilməsinə xüsusi təkan verdiyini deyib, Fövqəladə Hallar Nazirliyinin də daim vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa xüsusi diqqət yetirdiyini məmnunluqla vurğulayıb.

O, həmçinin qeyd edib ki, FHN yanında İctimai şura ictimai nəzarətin təmin edilməsi istiqamətində xüsusi fəallığı ilə seçilir, bu fəaliyyət rəhbərlik etdiyi media subyekti tərəfindən keçirilmiş sorğunun nəticələrində də əks olunub. Belə ki, ictimaishura.az saytında keçirilən sorğunun nəticələrinə əsasən, FHN yanında İctimai şura ölkə üzrə 2023-cü il üzrə ən fəal ictimai şura seçilib.

Bütün qeyd olunanlar nəzərə alınaraq, İctimai şuraların vahid onlayn plaforması tərəfindən Fövqəladə Hallar Nazirliyi ictimai iştirakçılığın təmin edilməsində və ictimai şuraların vahid onlayn platforması olan ictimaishura.az saytı ilə fəal əməkdaşlığına görə, Nazirlik yanında İctimai şura isə 2023-cü il üzrə ən fəal İctimai şura kimi Fəxri Fərmanla təltif edilib.

Fəxri fərmanlar müvafiq olaraq İradə Kərimova və Fuad Hacızadəyə təqdim edilib.



# FHN yanında İctimai şuranın üzvləri çimərlik mövsümü ilə əlaqədar monitorinqlər keçirib

24 İyun, 2024

Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın üzvləri çimərlik mövsümü ilə əlaqədar Xəzər rayonunun Mərdəkan qəsəbəsində fəaliyyət göstərən çimərlik ərazilərində monitorinqlər keçiriblər. Monitorinqlərin keçirilməsində əsas məqsəd çimərliklərdə xilasetmə işinin təşkili, ərazidə xidmət aparan xilasedicilərin hazırlıq səviyyəsi və təchizatı ilə bağlı vəziyyətin yerində qiymətləndirilməsi olub.

Monitorinqlər zamanı FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin nümayəndələri tərəfindən Şura üzvlərinə çimərlik mövsümünə hazırlıqla əlaqədar görülmüş işlər barədə geniş məlumat verilib. Bildirilib ki, aprel ayından etibarən çimərlik üçün təhlükəsizlik baxımından istifadəyə yararsız və təhlükəli ərazilər müəyyən edilib, Xidmətin nəzarət etdiyi çimərliklərdə üzmə sərhədlərini müəyyən edən nişanlar və ərazidə istirahət edən vətəndaşların təhlükəsizlik qaydaları ilə bağlı maarifləndirilməsi üçün xəbərdaredici lövhələr quraşdırılıb. Eyni zamanda, çimərliklərdə kompleks təhlükəsizlik tədbirləri görülüb, dalğıclar tərəfindən sualtı baxışlar keçirilib və bu proses zamanı aşkarlanmış təhlükəli ərazilərdə qadağanedici nişanlar quraşdırılıb.

Daha sonra Şura üzvləri çimərlik operatorlarının fəaliyyəti ilə tanış olaraq xilasedicilərin şərti xilasetmə əməliyyatı vasitəsilə hazırlıq səviyyələrini qiymətləndiriblər. Bundan əlavə, xilasedicilərin təchizatı barədə geniş məlumat verilib.

Xidmət tərəfindən çimərlik mövsümünə hazırlıqla bağlı görülən işləri yüksək qiymətləndirən İctimai şura üzvləri sahilboyu ərazilərdə monitorinqlərin davamlı olaraq aparılacağını bildiriblər.





# FHN yanında İctimai şura yanğınsöndürənləri təltif edib

10 Oktyabr, 2024



Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın təşəbbüsü ilə 10 oktyabr – Yanğınsöndürənlərin peşə bayramı günü münasibətilə bir qrup yanğınsöndürənlə görüş keçirilib.

Görüşdə FHN yanında İctimai şuranın sədri Fuad Hacızadə və şuranın üzvləri, Nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi daxili xidmət general-mayoru Asif Məmmədli, İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini İradə Kərimova, Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarənin Regional mərkəzlərlə işin təşkili idarəsinin rəis müavini Namiq Bağırzadə və yanğınsöndürənlər iştirak ediblər.

Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənlərini peşə bayramı münasibətilə İctimai şura üzvləri adından təbrik edən Şura sədri Fuad Hacızadə Azərbaycan yanğınsöndürmə məktəbinin böyük və şərəfli tarixə malik olduğunu vurğulayıb. Yanğınsöndürənlərin insan həyatının, dövlət, ictimai və fərdi əmlakın mühafizəsindəki əvəzsiz rolundan danışan Şura sədri istər ölkəmizdə, istərsə də ölkə hüdudlarından kənarda baş vermiş yanğınların söndürülməsi və digər fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında qəhrəmanlıq göstərdiklərini qeyd edərək onlara təşəkkür edib, çətin, məsuliyyətli və şərəfli peşə fəaliyyətlərində uğurlar arzulayıb.



FHN Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi daxili xidmət general-mayoru Asif Məmmədli təbrikə və səmimi fikirlərə görə təşəkkürünü bildirib, Azərbaycanda yanğından mühafizə qüvvələrinin tarixinə qısa ekskurs edib. A.Məmmədli Ümummilli Lider Heydər Əliyevin bu peşənin sahiblərinin əməyinə daim yüksək qiymət verdiyini, məhz onun Sərəncamı ilə 10 oktyabr tarixinin Yanğınsöndürənlərin peşə bayramı günü kimi təsis edildiyini diqqətə çatdırıb. Xidmət rəisi Ümummilli Liderin mütərəqqi siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ölkədə yanğın təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi üçün atılan məqsədyönlü addımlardan danışıb, yanğınsöndürənlərə böyük diqqət və qayğı göstərildiyini minnətdarlıq hissi ilə vurğulayıb.

Görüşdə digər çıxışçılar da yanğınsöndürənləri təbrik edərək onların fədakarlığından söz açıb, fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra FHN yanında İctimai şura tərəfindən Dövlət Yanğından Mühafizə Xidmətinin xidmətdə fərqlənən 12 nəfər yanğınsöndürəni "Təşəkkürnamə" ilə təltif edilib.





# FHN yanında İctimai şuranın üzvləri qazi mayor Süleyman Heydərovla görüşüb

23 Yanvar, 2025

Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın üzvləri ehtiyatda olan mayor, qazi Süleyman Heydərovla görüşüblər.

Görüş zamanı S.Heydərovun sağlamlıq vəziyyəti ilə maraqlanan şura üzvləri vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və təhlükəsizliyi uğrunda göstərdiyi igidliyin gənc nəsil üçün bir örnək olduğunu vurğulayıblar. Görüşün sonunda İctimai Şura adından S.Heydərova "Təşəkkürnamə" təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən 2022-ci ildə "İgidliyə görə"medalı ilə təltif edilmiş Süleyman Heydərov Ağdam rayonu ərazisində minatəmizləmə əməliyyatı zamanı piyada əleyhinə minanın partlaması nəticəsində xəsarətlər alıb. Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı müvafiq əmrlərlə S.Heydərova vaxtından əvvəl "mayor" hərbi rütbəsi verilib və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub.









Azərbaycan Respublikası
Fövqəladə Hallar Nazirliyi
yanında İctimai Şura

# Üzvlərin siyahısı (2023-2025)

1. Fuad Hacızadə - **İctimai şuranın sədri**, Beynəlxalq Ekoenergetika Akademiyası;
2. Mehman İsmayılov - **İctimai şuranın sədr müavini**, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqı;
3. Vəfa Abbasova - **İctimai şuranın sədr müavini**, "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyi;
4. Məhəmməd Məmmədov - **İctimai şuranın katibi,** "Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi;
5. Dinara Bayramlı - İctimai şuranın üzvü, SAF Həyat Naminə" Gənclər İctimai Birliyi;
6. Ramiz Cürənov - İctimai şuranın üzvü, "RƏVAN" Gəncliyə Dəstək İctimai Birliyi;
7. Ədil Ədilzadə - İctimai şuranın üzvü, "Yeni Həyat-İqtisadi İnkişaf" İctimai Birliyi;
8. Sahib Fərzəliyev - İctimai şuranın üzvü, Potensial Sumqayıt Mütəxəssislər Birliyi;
9. Azad Əliyev- İctimai şuranın üzvü, Azərbaycan Skautlar Assosiyasiyası İctimai Birliyi;
10. Emin Həsənli - İctimai şuranın üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi
11. Vüsalə Abışova - İctimai şuranın üzvü, "Azəri-Press Agentliyi" MMC;
12. Emil Qafarov - İctimai şuranın üzvü, Yaşıl Tikintiyə Dəstək İctimai Birliyi;
13. İlham Mərdanov - İctimai şuranın üzvü, "Qan Donorları Assosiasiyası" İctimai Birliyi;
14. Davud Rəhimli - İctimai şuranın üzvü, Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqı;

Azərbaycan Respublikası
Fövqəladə Hallar Nazirliyi
yanında İctimai Şura

# Diqqətinizə görə təşəkkür edirik

Bakı şəhəri, 2025